# VƏTƏN SİZƏ OĞUL DEDİ

*Zəngilan-Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub*



*Məmmədov Vüsal Qüdrət oğlu 3 iyun 1990-cı ildə Füzuli rayon, Musabəyli kəndində anadan olub. O Vətən müharibəsində Zəngilan-Qubadlı istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub. 7 ay əvvəl ailə həyatı quran Şəhidimiz evə zəng edən zaman "Oğlumuza Hüseyn adı verərsiniz" deyə vəsiyyətini edib.*

*Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olub*



*Cabbarov Şahgündüz Habil oğlu 13 yanvar 1995-ci ildə Bərdə rayon Mollalı kəndində anadan olub. 2012-ci ildə orta məktəbi bitirən Şahgündüz "Azərbaycan Dövlət Neft Akademiyası"nın (ADNSU) "Qazneft və mədən" fakultəsinə qəbul olub. Bakalavr təhsilini bitirdikdən sonra 2016- 2017 ci illərdə hərbi xidmətə yollanıb. Xidmətini ön xətt postlarından birində edib 2018 -ci ildə SOCARDA qazmaçı vəzifəsində işə qəbul olub.*

*Müharibə başlayan gündən o, aidiyyatı qurumlara dəfələrlə müraciət edib, sonunda isə müraciətinə baxılıb və Vətənə olan son borcunu ödəmək üçün, canından çox sevdiyi Vətən torpağının müdafiəsinə, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərə yollanıb. 26 oktyabrda Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq Şəhid olub.*

*MAXE Tağıyev Azər*




*MAXE Tağıyev Azər Kamil oğlu 1999-cu il dekabr ayının 20-si Şahtaxtı kəndində anadan olub. Azər 2018-ci ildə hərbi xidmətə çağırılıb və 2019-cu ildə xidməti başa vurub. Xidməti bitirdikdən sonra könüllü ərizə yazaraq yenidən ordu sıralarına daxil olaraq xüsusi təyinatlı qüvvələrin kəşfiyyatçı qumbaraatan vəzifəsində xidmətini davam etdirib. Vətən mharibəsi başlayan zaman Naxçıvandan yollanan dəstənin içində ön cəbhədə döyüşlərə qatılıb. Hadrut, Xankəndi istiqamətində döyüşlərdə iştirak edib. Şuşaya ilk ayaq basan igidlərimizdən olan Azər Şuşa uğrunda gedən əlbəyaxa döyüşlərdə iştirak edib və noyabr ayının 9-u minamyot mərmisinin partlayışı nəticəsində qəhrəmancasına şəhid olur. Noyabrın 13-u doğulduğu Şahtaxtı kəndində son mənzilə yola salınıb.*

*MAXE Azər Tağıyev Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Azərbaycan Bayrağı" ordeni, "Şuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.*